

# Multilinqvizm

gündəlik imkanların rəngarəngliyi



## Multilinqvizm - gündəlik imkanların rəngarəngliyi

İnsanlar arasında ünsiyyət və kommunikasiya üçün dil lazımdır.

Dil insanlar arasında körpü rolunu yerinə yetirir: nə qədər çox dil bildiyin halda, bir o qədər çox insanlarla əlaqə qura bilərsən; dili nə qədər yaxşı bilsən – bir o qədər də müxtəlif millətlərin və ölkələrin nümayəndələri ilə işgüzar ünsiyyət qurmaq asan olar.

Biz, valideynlər istəyirik ki, hər zaman dəyişkən mühitdə övladlarımızın nəsli bizim nəsildən daha yaxşı səmtləşə bilsin və xoşbəxt olsunlar, öz həyatları və işgüzar fəaliyyətlərindən zövq alsınlar – daha çox nailiyyət əldə etsinlər, özlərini bərqərar etsinlər, karyeralarında və işlərində zirvələrə çatsınlar.

Övladlarımızın biləcəkləri və istifadə edəcəkləri hər bir dil onlara yeni imkanlar verəcək ki, müxtəlif insanlarla ünsiyyət yaratsınlar, onlarla birlikdə işləsinlər, onların mədəniyyət və həyat qaydaları ilə tanış olsunlar; nəzərə almaq lazımdır ki, müasir dünyada dillər üzrə biliyə daha çox dəyər verilir – bir neçə dil bilən şəxsin praktiki olaraq yüksəkmaaşlı iş yeri təmin edilmişdir.

Son onilliklərdə Avropa Şurası azlıqların dilləri hüquqlarının müdafiəsi, onların dillərinin qorunub saxlanılması və dəstəkləndirilməsi üzrə işi aktivləşdirdi. Bu kontekstdə multilinqvist

(çoxdilli) təhsil ən yaxşı yol hesab edilir. Çoxdillilik – insanın həyati vəziyyətdə bir neçə dildən praqmatik istifadəetmə imkanıdır.

Müasir dünyada hər bir insan çoxdilli olmağa çalışır ki, yalnız ana dilini bilənlərlə müqayisədə daha çox imkanları olsun. Hal-hazırda hər zaman dəyişən mədəni Avropa məkanında çoxdillilik norma hesab edilir.

İkinci dili nailiyyətlə öyrənmək üçün ana dilinin inkişafının çox böyük əhəmiyyəti vardır. Övladınızın yaş normalarına uyğun olaraq ana dilinin inkişafı onu bildirir ki, uşağın dil haqqında təsəvvürü yaransın ki, bu sistem ikinci dilin öyrənilməsi üçün şərtdir.

Övladınızın bir neçə dildə danışmağını istədiyiniz halda, ilk növbədə, onların ana dilində nitqlərinin inkişafına dəstək verin və eyni zamanda, ikinci dilə sahib olmağa yardım edin – bu iki məqsəd bir-birinə mane olmur!

## Nə üçün Gürcüstanda multilinqvist təhsil önəmlidir?

Gürcüstan – çoxmilli və çoxdilli bir ölkədir. Gürcüstanda yaşayan milli azlıqlar övladlarına ana dilində icbari təhsil seçməklə dillərinin qorunub saxlanılmasına və inkişafına qayğı göstərirlər.

Gürcüstanda rəsmi və dövlət dili gürcü dilidir və bu dil üzrə bilik Gürcüstanın çoxdilli və çoxmilli əhalisinin hər bir vətəndaşının cəmiyyətə inteqrasiyası üçün önəmli bir vasitədir.

Hal-hazırda milli azlıqların gənc nümayəndələri arasında dövlət dilinin mənimsənilməsi səviyyəsi kifayət deyil ki, qeyri-gürcüdilli məktəblərin bir çox məzunları dövlət universitetlərində gürcü dilində təhsillərini davam etdirə bilsinlər.

Bu vəziyyət açıq-aydın onu göstərir ki, gürcü dilinin bir fənn kimi təlimi kifayət etmir ki, şagirdlər gürcü dilinə lazımi səviyyədə sahib olsunlar. Problemin ən effektiv həlli – fənnin və dilin inteqrativ təlimidir (CLIL).

## Dilin və fənnin inteqrativ tədrisi (CLIL) nədir?

Dilin və fənnin inteqrativ tədrisi (CLIL) çoxdilli təhsil metodikalarından biridir. Bu metodikadan istifadə etməklə şagirdlər (təbiət, tarix, biologiya və s.) fənləri başqa dildə öyrənə bilərlər.

İnteqrativ dərs ana dilində keçilən adi fənn dərsindən fənni yalnız tədris dilindən ibarət deyil: inteqrativ dərs şagirdlərin dil bacarıqlarının məqsədyönlü inkişafı və təlimin müxtəlif aktiv və oyun metodlarının tətbiqi ilə seçilir. Bununla yanaşı, şagirdlər fənni Milli tədris proqramının tələblərinə uyğun olaraq öyrənirlər.

# Dilin və fənnin inteqrativ tədrisi Gürcüstan məktəblərində necə gerçəkləşdirilir?

2018/2019-cu dərs ilindən etibarən milli azlıqların 20 pilot məktəbində üçüncü sinifdə Təbiət fənnini gürcü dilində tədris etməyə başladılar. Nə üçün məhz Təbiət fənni? Bu fənnin məzmunu – uşağın ətraf mühiti ona yaxın və aydındır. Məhz belə bir fənn – fənn və dilin inteqrativ tədrisi ilə tanışlıq - çox yaxşı bir imkandır, çünki uşaq ona gürcü dili dərslərindən tanış olan sözlərdən istifadə etməklə ətraf mühit haqqında yeni bilik əldə etdiyində və dil bacarıqlarını inkişaf etdirdiyində özünü rahat hiss edir və özünə əmin olur.

İnteqrativ dərs necə keçir? Təbiət dərsi gürcü dilində davam edir. Müəllim yeni materialı izah etmək üçün uşaqlara tanış olan sözlərdən istifadə edir və yavaş-yavaş yeni sözlər daxil edir və uşaqlar da müxtəlif çalışmaları yerinə yetirdikdə bu sözləri bərkidirlər. Müəllim çoxlu əyani vəsait və müxtəlif növ tapşırıqlardan istifadə edir, o cümlədən cütlükdə və qruplarda yerinə yetirilən tapşırıqlardan.

Əgər uşaq müəllimi başa düşmürsə? Gürcü dilində təbiətin təlimi şagirdlərə gürcü dilindən tanış olan sözlərlə başlanılır ki, bunları da uşaqlar hələ birinci sinifdən öyrənməyə başlamışlar. Təbiət və Gürcü dili müəllimi birlikdə dərslərini elə planlaşdırırlar

ki, uşaqlar Təbiət dərsində öyrəndikləri sözləri Gürcü dərsində təkrar etsinlər və bərkitsinlər. Dərsdə uşağın müəllimi başa düşmədiyi vəziyyət yarandığı halda, müəllim şagirdə tanış olan sözlərdən, əyani vəsaitlərdən və ya başqa şagirdlərə yardımdan istifadə edərək mövzunu izah edir.

## Nə üçün məhz fənn və dilin inteqrativ tədrisi?

Fənn və dil üzrə inteqrativ tədris elə bir imkandır ki, eyni zamanda fənni öyrədir və dil bacarıqlarını inkişaf etdirir. Ayrı-ayrı fənlərdə inteqrativ təlimə giriş forması, məsələn, Təbiət fənnində, uşağın ana dilinin inkişafına zərər vermir və fənnin təlimi üçün maneələr yaratmır. Bundan başqa, fənnin başqa dildə öyrənilməsi, məsələn, gürcü dilində, bu dil üzrə bacarıqları önəmli şəkildə yaxşılaşdırır. Dilin yalnız dərs fənni kimi öyrənildiyi halda, onun mənimsənilməsinə 9 il lazımdır, halbuki fənnin təlimi zamanı dildən istifadə edilməsi dilin mənimsənilməsi vaxtını ən azı iki dəfə azaldır!

Bəzən valideynlər ehtiyat edirlər ki, ikinci dil üzrə məhdud biliklərinə görə uşaqlar dərs fənnini mənimsəyə bilməsinlər, çünki bu, onların akademik geridə qalmalarına səbəb olar və fənnin Milli tədris planına zərər vura bilər (riyaziyyat, fizika, coğrafiya və s.) ki,

bunun yerinə yetirilməsi də bütün fənlər üzrə vacibdir. Əslində belə deyil: bir çox tədqiqatlar keçirilmişdir və təcrübə də göstərir ki, ikinci dilin istifadəsi təlimə mane olmur, əksinə şagirdlərin fənn üzrə bilgilərinin inkişafına dəstək verir.

Gürcüstanın qeyri-gürcüdilli məktəblərində fənn və dilin inteqrativ təlim metodikasından **mütləq tətbiq etmək lazımdır:** təkdilli qeyri-gürcüdilli məktəblərdə dövlət dilinin tədrisi praktiki olaraq yalnız Gürcü dili dərslərində həyata keçirilir. Məktəb və q

eyri-məktəb mühiti bütövlükdə qeyri-gürcüdilli olduğunda müxtəlif kontekstlərdə (o cümlədən məktəb mühitində, fənn dərslərində) dövlət dilinin istifadəsi çox vacibdir.

## Birinci hər zaman birincidir!

Məşhur dilşünas və müəllimlər Piaje və Viqodski ikinci dilin öyrənilməsi prosesində ana dilinə böyük əhəmiyyət verirlər, yəni uşağın ailədə danışdığı dilin roluna. 1990-cu illərdən linqvistlər, müəllimlər və nevroloqlar məktəbin ibtidai pilləsində rəngarəng linqivistik mühit şərtlərində uşağın dil və koqnitiv inkişafı üzrə intensiv tədqiqatlar aparırdılar. Bunu Beyker, Voud və Tomas/Kolyer tədqiqatlarının nəticələri də sübut edirlər. Uşağın ümumi inkişafı prosesində tədris dilinin əhəmiyyəti haqqında

Viqodski və Piajenin fikirlərini onlar tərəfindən aparılan tədqiqatlar da əsaslandırırlar.

Monolinqual (ana dilində) məktəbdə təhsilə başlamaq, uşaq üçün ən yaxşı variantdır, belə bir sinifdə uşaq özünü rahat hiss edir, normal inkişaf edir, amma birdilli olur. Problemləri məktəbi başa vurduqdan sonra başlayır, təhsilini davam etdirmək istədiyində və ya uyğun iş axtarmağa başladığında. Məhz bu zaman dövlət (gürcü) dilinin yüksək səviyyədə biliyi lazım gəlir ki, bunu da əldə etmək, dəfələrlə qeyd edildiyi kimi, gürcü dilinin, fənn kimi hətta gücləndirilmiş tədrisi vasitəsilə də mümkün deyil; xüsusilə də gündəlik ünsiyyət vasitəsinin gürcü dili olmadığı regionda yaşayırsınızsa.

Bəs bu halda, ən yaxşı vasitə nədir?

Ən yaxşı variant nədir?

Yenə də və yenə də: multilinqval təhsil!

Məhz multilinqual təhsil zəmanət verir ki, ana dilində alınan təcrübəni yeniyetmə ikinci və üçüncü dilə keçirsin.

Ana dilləri dövlət dili olmayan uşaqlar üçün multilinqual məktəbdə ikinci dil onların ana dilinin inkişafı və qorunub saxlanılması ilə yanaşı inkişaf edir. Ana dilinin vasitəsilə iki və ya daha çox dil öyrənən uşaqlar təkcə dil nöqteyi-nəzərindən inkişaf etmirlər, eləcə də akademik fənlər üzrə də yüksək nəticələr əldə edirlər (riyaziyyatda, fizikada, coğrafiyada və s.). Onlar

multilinqual olurlar və bu da təkcə onu bildirmir ki, iki və ya daha çox dili sərbəst bilir və müxtəlif məqsədlər üçün bu dillərdən istifadə edirlər, eləcə də onların paralel olaraq əlavə vərdiş-bacarıqları da inkişaf edir. Birinci növbədə, multilinquallarin əqli təfəkkür bacarıqları inkişaf edir. Onlar daha kreativ olurlar və mövcud problemləri müstəqil həll etməyə daha çox imkanları olur.

Yuxarıda dəfələrlə qeyd edildiyi kimi: multilinqual təhsil ana dilinin rolunu kiçiltmir, əksinə onun tədris prosesində əhəmiyyətini vurğulayır. Multilinqval təhsil modelinin təməlçilərindən biri – Kumins hər zaman ana dilinin əhəmiyyətini vurğulayırdı:

**Birinci hər zaman birincidir!** - deyirdi o, – birincidə isə, əlbəttə ki, ana dilini nəzərdə tuturdu. Kuminsin fikrincə, uşağın tamdəyərli mənimsədiyi ana (birinci) dili təməlinə əsaslanmayan heç bir multilinqual proqram və ya model effekt və nəticə verməyəcəkdir.